## AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ

AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, M.Mirqasımov küç.,1A Tel.: (+994 12) 441 26 03 Faks: (+994 12) 493 06 95
www.health.gov.az e-poçt: office@health.gov.az

"22" İyun 2016 il № 41

## ƏMR

**"Transplantologiya işinin təşkili barədə"**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 17 noyabr tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş qaydalara uyğun olaraq insan orqan və (və ya) toxumaların transplantasiyası işinin təşkili məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Transplantologiya işinin təşkili üzrə Əlaqələndirici Şura" (bundan sonra – Şura) yaradılsın və onun tərkibi təsdiq edilsin (əlavə olunur).

2. Şuraya tapşırılsın:

2.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 17 noyabr tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş qaydalar əsas götürülərək insan orqan və (və ya) toxumaların transplantasiyası işi əlaqələndirilsin, həmçinin donor və resipiyentlərin müəyyən edilərək qeydiyyata alınması, spesifik müayinələrin aparılması, transplantasiya əməliyyatlarının növbəlik prinsipi əsasında həyata keçirilməsi işinin təşkili təmin edilsin;

2.2. transplantologiya işinin təkmilləşdirilməsi sahəsində, o cümlədən donor bankının yaradılması üzrə təkliflər Səhiyyə Nazirliyinə təqdim edilsin.

3. Əmrin icrasına nəzarət nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
"22" 06. 2016 tarixli
41 nömrəli əmri ilə təsdiq edilmişdir.

**Transplantologiya işinin təşkili üzrə Əlaqələndirici Şuranın**

**TƏRKİBİ**

| | |
|---|---|
| 1. Fikrət Qədiməliyev | - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, sədr |
| 2. Şahlar Nəsirov | - Akad. Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının böyrək transplantasiyası şöbəsinin müdiri |
| 3. Mircəlal Kazımi | - Mərkəzi Neftçilər Xəstəxanasının cərrahiyyə və orqan transplantasiyası şöbəsinin müdiri |
| 4. Elnur Fərəcov | - Mərkəzi Neftçilər Xəstəxanasının həkim nefroloqu |
| 5. Xəyyam Eyvazov | - Respublika Müalicə Diaqnostika Mərkəzinin terapevt-endokrinoloqu |
| 6. Aynurə Əliyeva | - Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının anestezioloq-reanimatoloqu |